# Azərbaycanın bərpaolunan enerji potensialına maraq artır

## *Ölkəmiz "yaşıl enerji" mənbələri ilə bağlı qlobal çağırışlara cavab verən layihələr reallaşdırır*



Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünya ölkələri ilə münasibətlərin qurulmasına böyük önəm verildi. Bu isə bəzi ölkələrlə tarixən mövcud olan dostluq, qardaşlıq əlaqələrinin yenidən canlanması üçün zəmin yaratdı. Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında sıx dostluq və qardaşlıq münasibətlərinin də tarixi kökləri var. Onu da qeyd edək ki, müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsinə hər iki tərəf möhkəm səy göstərmiş, ölkə rəhbərlərinin rəsmi dövlət səfərləri, ölkələrimiz arasında imzalanan sənədlər, qəbul edilən qərarlar bu işə təkan vermişdir: "Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızda dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir...".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə inşa ediləcək yeni külək elektrik stansiyasının təməlqoyma mərasimində səsləndirmişdir.

Enerji təhlükəsizliyi bu gün Avropanın əsas problemlərindən biri olaraq qalır, daha dəqiq desək, avropalı istehlakçıların enerji təhlükəsizliyinin təmin edilməsi qarşıda əsas vəzifə kimi durur.

**(davamı 4-cü səhifədə)**

# Azərbaycanın bərpaolunan enerji potensialına maraq artır

(əvvəli 1-ci səhifədə)

Bununla bağlı Avropa artıq elektrik sahəsində kömürdən qaza keçid prosesinə start verib və elektrik istehsalında bərpaolunan enerji mənbələrindən istifadə etmək niyyətindədir.

Bərpa edilən enerjiyə münasibətdə Azərbaycanın öz maraqları var. Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VII iclasında deyib ki, biz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar mərhələsindəyik, artıq onların ikisi ilə inşaat üçün zəruri sənədlər imzalanıb. Bunların biri günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, onların da birgə gücü 440 meqavatdır. Dünya Bankının hesabatına görə, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. Bərpaolunan enerji sahəsinə sərmayələrin cəlb edilməsi bizim bərpaolunan enerji mənbələrinə dair strategiyamıza və potensialımıza uyğundur. Dövlət başçısı daha sonra bildirib: "...Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranmışdır. Bu baxımdan, mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq azad edilmiş əraziləri "yaşıl enerji" ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, günəş və külək potensialından istifadə edərək həmin layihələri icra edəcəyik... Hesab edirəm ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsullarının təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və "yaşıl enerji"yə fəal şəkildə sərmayə yatırmalıdır. Biz məhz bununla məşğuluq". Bu günlərdə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlinin qoyulması bu sahədə ilk addım oldu.

"Xızı-Abşeron" Külək Elektrik Stansiyasının tikilməsini Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsi prosesində olduqca əhəmiyyətli hadisə hesab etmək olar. İnşa olunacaq stansiya ölkəmizdə bərpa olunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaq. İstehsal gücü 240 meqavatdır. Bu məqsədlə Azərbaycana 10 milyardlarla dollar həcmində sərmayə qoyulub. Hazırda sərmayə qoyuluşu davam edir.



## Ölkəmiz "yaşıl enerji" mənbələri ilə bağlı qlobal çağırışlara cavab verən layihələr reallaşdırır

Səudiyyə Ərəbistanının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun sözlərinə görə, "ACWA Power" 2030-cu ilə qədər Səudiyyə Ərəbistanında elektrik enerjisinə olan daxili tələbatın 50 faizini məhz bərpaolunan enerji mənbələri sayəsində təmin etmək üçün külək və günəş enerjisi potensialını artıraraq krallığın bərpaolunan enerji sahəsində təşəbbüslərinin önündə olub. Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Külək hesabına əldə olunan 240 meqavat enerji ilə 300 min evin elektrik enerjisi təmin ediləcək, eyni zamanda, 220 milyon kubmetr qaza qənaət olunacaq. İl ərzində 400 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Bununla da Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunmasına, həmçinin Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonasına çevirməyə imkan yaranacaq.

Onu da qeyd edək ki, "ACWA Power" şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi ilə əlaqədar anlaşma memorandumu da imzalayacaq. Bu stansiyanın isə gücü təxminən 500 meqavat olacaq.

Azərbaycan Prezidenti İlham Əliyev təməlqoyma mərasimindəki çıxışında deyib: "Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir... Mən əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər investisiya layihələrini icra etməyə başlayacağıq...".

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdüləziz bin Salman Əl-Səud isə çıxışında ölkələrimiz arasındakı uzun müddət ərzində qurulan güclü diplomatik və iqtisadi münasibətlərdən danışıb, Azərbaycanın birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu, hələ XIX əsrdə burada quyulardan neft hasil edildiyini bir daha diqqətə çatdırıb, dünya ilə birgə iqlim dəyişkənliyinə qarşı mübarizənin aparılmasında, qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək ortaq marağa sahib olduğumuzu vurğulayıb: "...Əməkdaşlıq üçün ümumi istəyin olacağı təqdirdə, biz hər bir aspekt üzrə işbirliyi qurmalıyıq. Bu, ölkə və onun xalqı üçün, bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu ölkənin rəhbərliyi ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyətə malikdir. İki müsəlman ölkəsi arasında uzun məsafənin olmasına baxmayaraq, onların öz planlarına görə bir-birinə bu qədər yaxın olmasını görməkdən yaxşı nə ola bilər...".

Bu gün alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçidin təmin edilməsi istiqamətində həyata keçirilən layihələr hələ 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan enerji siyasətinin davamıdır. Hazırda bəşəriyyətin iqlim dəyişkənliyinə qarşı mübarizəsi günü-gündən artır. Atmosferə atılan zərərli tullantıların həcminin azaldılması və "yaşıl enerji" ilə əvəz edilməsi dünyanı düşündürən əsas məsələlərdəndir. Atom elektrik stansiyalarının "yaşıl enerji" mənbələri ilə əvəz edilməsi üçün dünya ölkələri müəyyən planlar qurur. Azərbaycan da öz növbəsində qlobal çağırışlara cavab verən layihələr reallaşdırır. Bu istiqamətdə aparılan işlər sayəsində isə Azərbaycan regionda elektrik enerjisinin ixracında böyük ixracatçıya çevriləcək. Bu isə ölkə iqtisadiyyatının güclənməsinə, dinamik inkişafına öz töhfəsini verəcək.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2022.- 26 yanvar.- S.1;4.